## GMO və yem məhsullarının qeydiyyatı üçün tələb olunan sənədlər

Yem üçün istifadəsi nəzərdə tutulan GMO və GMO-lu yem məhsullarının qeydiyyatı ilə bağlı təqdim edilən ərizədə aşağıdakı məlumatlar qeyd olunmalıdır:

1. "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 30.2-ci maddəsi ilə müəyyən edilmiş məlumatlar:

1.1. ərizəçinin müraciət etdiyi inzibati orqanın adı;

1.2. ərizəçi fiziki şəxs olduqda onun soyadı, adı, atasının adı və ünvanı, şəxsiyyətini təsdiq edən sənəd haqqında məlumatlar;

1.3. ərizə hüquqi şəxsin adından verildikdə onun adı və hüquqi ünvanı;

1.4. tələbin qısa məzmunu;

1.5. ərizənin tərtib edildiyi tarix və ərizəçinin imzası;

1.6. hüquqi şəxsin rəhbərinin və ya nümayəndəsinin imzası və hüquqi şəxsin möhürü;

1.7. ərizəyə əlavə edilmiş sənədlərin siyahısı.

2. məhsulun adı;

3. idxal edilən məhsulun xarici ölkədə verilmiş unikal identifikatoru;

4. mənşə ölkəsi;

5. istehsal və ya emal edildiyi qida obyektinin adı və ünvanı.

6. Ərizəyə aşağıdakı sənədlər və məlumatlar əlavə edilir:

6.1. təyinatına və xüsusiyyətinə dair məlumat;

6.2. genetik modifikasiya növünə dair məlumat;

6.3. istifadə şərtləri;

6.4. saxlanma şəraiti və yararlılıq müddəti;

6.5. idxal edilən məhsula münasibətdə mənşə sertifikatı və səlahiyyətli dövlət qurumu tərəfindən verilmiş təhlükəsizliyini təsdiq edən sənəd;

6.6. genetik modifikasiya növünü identifikasiya etməyə imkan verən tədqiq (sınaq) metodları.